

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 218 (23.630)

15 dekabr 2020-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 12-də Fəxri xiyabana gələrək müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət ediblər. Prezident İlham Əliyev ulu öndərin məzarı önünə əklil qoyub. Azərbaycanın Dövlət Himni səsləndirilib.

Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoyublar. Görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin də xatirələri yad edilib, məzarları üstünə gül dəstələri düzülüb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskontini, ABŞ-dan olan həmsədri Endrü Şoferi, Rusiyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikovu və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşiki qəbul edib.



## Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun yaradılması haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda gedən hərbi əməliyyatlar nəticəsində yaralanan şəxslərin və şəhid ailələrinin sosial müdafiəsi sahəsində muxtar respublikada həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsində vətəndaş cəmiyyəti təşəbbüslərinin və bu sahədə şəffaflığın, hesabatlılığın və ictimai nəzarətin təmin edilməsi məqsədilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu (bundan sonra – Fond) yaradılsın.

2. "Fondun vəsaitinin formalaşdırılması, idarə olunması və ondan istifadə Qaydası" təsdiq edilsin (əlavə olunur).

3. Müəyyən edilsin ki:

3.1. Fond Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralanmış hərbi qulluqçuların və şəhid olmuş şəxslərin ailələrinin sosial müdafiəsi sahəsində muxtar respublikada həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi məqsədilə yaradılır;

3.2. Fondun vəsaiti Azərbaycan Respublikası vətəndaşlarının, xarici ölkələrdə yaşayan soydaşlarımızın, digər fiziki və hüquqi şəxslərin könüllü olaraq maliyyə vəsaiti şəklində verdiyi yardımlar (ianələr), habelə qanunla qadağan olunmayan digər mənbələr hesabına formalaşdırılır;

3.3. Fondun vəsaitinin sərəncamçısı Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyidir (bundan sonra –Nazirlik).

4. Nazirlik:

4.1. bu Fərmanın 3.1-ci bəndində nəzərdə tutulmuş şəxslərin müraciətlərinin qəbulunu və onlara baxılmasını, həmin şəxslərə Fond vasitəsilə göstərilən dəstək tədbirlərinin onların sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərlə uzlaşdırılmasını təmin etsin;

4.2. fiziki və hüquqi şəxslərin Fonda könüllü olaraq maliyyə vəsaiti şəklində verdiyi yardımların bank və ya poçt vasitəsilə, eləcə də elektron qaydada qəbulunu təşkil etsin;

4.3. Fondun vəsaitlərinin idarə edilməsini və əlavə dəstək tədbirlərinin həyata keçirilməsini təmin edən informasiya sistemini formalaşdırsın;

4.4. Fondun vəsaitlərinin idarə olunması ilə bağlı elektron hesabatlılığı, habelə daxil olan və xərclənən vəsaitin məbləği və istiqamətləri ilə bağlı məlumatların Fondun rəsmi internet səhifəsində yerləşdirilməsini və daim yenilənməsini təmin etsin;

4.5. Fond vasitəsilə həyata keçirilən tədbirlərə könüllüləri cəlb etsin;

4.6. Fondun vəsaitinin idarə edilməsinə dair yarımillik və illik hesabatları, habelə digər zəruri məlumatları aidiyyəti üzrə təqdim etsin.

5. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 14 dekabr 2020-ci il*

## Naxçıvan Dövlət Universitetində Texnologiyalar Parkının yaradılması haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Muxtar respublikada innovasiyayönümlü iqtisadiyyata keçid, müasir elmi və texnoloji nailiyyətlərə əsaslanan xidmət sahələrinin genişləndirilməsi, elmi tədqiqatların aparılması və nəticələrinin sənayedə tətbiqi ali təhsil müəssisələrində müasir komplekslərin yaradılmasını zərurətə çevirir.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq elmlə istehsalat arasında qarşılıqlı əlaqənin qurulması, istehsalatın yeni elmi ideyalar əsasında inkişafı, elmi tədqiqatlara olan xərclərin səmərəliliyinin yüksəldilməsi məqsədilə **qərara alıram:**

1. Naxçıvan Dövlət Universitetində 2 hektar ərazini əhatə edən, müxtəlif elm sahələri üzrə təcrübə-konstruktor, elmi-tədqiqat və startap layihələrinin mühüm elmi nəticələrinin sənaye və xidmət sahələrində tətbiqini həyata keçirən sosial, mədəni, mühəndis-kommunikasiya təminatı olan obyektlər kompleksindən ibarət Texnologiyalar Parkı (Texnopark) yaradılsın.

2. Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar Nazirliyi Texnologiyalar Parkının texniki xüsusiyyətlərinə aid tələbləri nəzərə almaqla mühəndis-kommunikasiya təchizatını təmin etsin.

3. Naxçıvan Muxtar Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi Naxçıvan Dövlət Universitetinin təklifləri əsasında Texnologiyalar Parkının layihəsini hazırlayıb təqdim etsin.

4. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 14 dekabr 2020-ci il*

## Naxçıvanda ümummilli liderimiz Heydər Əliyevin xatirəsi yad edilib





Dekabrın 12-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül qoymuş, ulu öndərin xatirəsini dərin ehtiramla yad etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Naxçıvan Şəhər İcra Hakimiyyətinin, nazirlik, komitə, xidmət, şirkət və baş idarələrin, müəssisə və təşkilatların, ali məktəblərin, hərbi hissələrin nümayəndələri də ulu öndərin xatirəsinə ehtiramlarını bildirmişlər.

Ümummilli liderimiz Heydər Əliyevin zəngin siyasi irsi və dövlətçilik fəaliyyəti müstəqil Azərbaycanın dünəni, bu günü və gələcəyidir. 1969-cu il iyulun 14-də ulu öndərimizin ölkəmizə rəhbər seçilməsi Azərbaycanın müstəqillik tarixinin və uğurlu inkişafının əsasını qoydu. 1969-1982-ci illərdə ümummilli liderimizin rəhbərliyi ilə Azərbaycanda böyük iqtisadi tədbirlər reallaşdırılmış, istehsal müəssisələri, zavodlar, fabriklər tikilmiş, təhsil, səhiyyə, mədəniyyət ocaqları fəaliyyətə başlamış, xalqımızın

Ardı 2-ci səhifədə

tarixi yaddaşı bərpa edilmişdir. İkinci dəfə qazandığımız dövlət müstəqilliyinin əsasında da ulu öndərin ötən əsrin 70-80-ci illərində yaratdığı möhkəm təməl, güclü intellektual və iqtisadi potensial, milli ruh dayanırdı.

Heydər Əliyev şəxsiyyəti, Heydər Əliyev dühası müstəqil Azərbaycanın uğurlu inkişafının təməlində dayanan əsas amildir. Vətənin ağır bəlalardan xilasını özünün tarixi missiyası kimi qəbul edən ümummilli liderimizin Azərbaycan naminə fəaliyyətinin 1990-cı ildən sonrakı mərhələsi şərəfli xilaskarlıq və quruculuq missiyasına həsr edilib. Bu missiyanın öz başlanğıcını götürdüyü məkan isə Azərbaycanın Naxçıvan Muxtar Respublikasıdır. Ulu öndər Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi 1990-1993-cü illərdə Azərbaycan xalqının azadlıq və müstəqilliyi üçün çalışmış, müstəqil dövlətçilik ənənələrinin formalaşdırılması istiqamətində tarixi addımlar atmışdır. Dahi şəxsiyyətin uzaqgörən siyasəti sayəsində muxtar respublikanın adından "sovet, sosialist" sözləri çıxarılmış, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı kimi qəbul edilmiş, qədim Naxçıvan torpağı erməni təcavüzündən qorunmuşdur. Dahi rəhbərin o çətin dövrdə Naxçıvanda həyata keçirdiyi tədbirlər müstəqil dövlətçiliyimizin bünövrəsini qoymuşdur. Azərbaycanda ilk milli ordu quruculuğuna Naxçıvan Muxtar Respublikasından başlanılması da bu yolda qəbul edilən ən mühüm qərarlardandır.

Xalqın ulu öndər Heydər Əliyevə olan böyük inamı və təkidli tələbi ilə 1993-cü il iyunun 15-də dahi rəhbər ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıtdı. Bu qayıdış Milli Qurtuluş Günü kimi tarixə düşdü. Ümummilli liderin şəxsiyyəti, onun özünəməxsus siyasi idarəetmə qabiliyyəti, qətiyyəti, uzaqgörənliyi ölkəmizdəki böhrana son qoydu, xalqımız Azərbaycançılıq ideyaları ətrafında birləşdi. Azərbaycanda vətəndaş qarşıdurmasına birdəfəlik son qoyuldu, ölkəmiz xaosdan, siyasi çəkişmələrdən, sosial-iqtisadi böhrandan xilas oldu. Müstəqil, demokratik, hüquqi və dünyəvi dövlətçilik yoluna qədəm qoyan Azərbaycanın qarşısında duran problemlər həll olundu, əmin-amanlıq, siyasi sabitlik yarandı. İctimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni həyatda əsaslı dönüş başlandı, xalqımızın həmrəyliyi, milli birliyi təmin edildi, Azərbaycanın dünya birliyinə inteqrasiyası başlandı.

Ulu öndər Heydər Əliyevin ömür yoluna nəzər salsaq, aydın olar ki, bu ömür yalnız bir məqsədə xidmət etmişdir: O da müstəqil və qüdrətli Azərbaycandır. Ona görə də ümummilli liderimizin ölkəmizə rəhbərlik etdiyi illər tariximizə milli intibah, milli tərəqqi, milli oyanış və müstəqil dövlət quruculuğu dövrü kimi daxil olmuşdur.

Bu gün ümummilli liderimizin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasətin nəticəsidir ki, 30 ilədək işğal altında olan torpaqlarımız 44 gün ərzində müzəffər Ordumuz tərəfindən düşmən tapdağından azad edildi. Bununla həm ərazi bütövlüyümüz təmin edildi, həm də ***"Hər bir azərbaycanlı bilməlidir və hazır olmalıdır ki, əgər bizim bütün cəhdlərimiz nəticə verməsə, nəyin bahasına olursa-olsun, canımızın, qanımızın bahasına olsa da, işğal olunmuş torpaqlarımızı azad etməli, Azərbaycanın sərhədlərinin toxunulmazlığını, ərazi bütövlüyünü təmin etməliyik"***, – deyən ümummilli liderimizin arzuları reallaşdı.

Şuşanın azad edilməsi xəbərini Bakıdakı Şəhidlər xiyabanından xalqa çatdıran Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"Mən bu gün ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, Böyük Qələbədir! Bu gün şəhidlərimizin, ulu öndərin ruhu şaddır!"***

Bu gün Naxçıvan Muxtar Respublikası da əsl inkişaf və tərəqqi dövrünü yaşayır. Bu tərəqqiyə ümummilli liderimizin müəllifi olduğu inkişaf strategiyasının uğurla davam etdirilməsi və Heydər Əliyev siyasi xəttinə sədaqət nəticəsində nail olunmuşdur. Son illər muxtar respublikada quruculuq işləri geniş vüsət almış, dinamik iqtisadi inkişaf əldə olunmuş, infrastruktur yenilənmiş, sosial proqramlar qəbul edilərək icra olunmuş, enerji və ərzaq təhlükəsizliyi təmin olunmuş, etibarlı müdafiə sistemi yaradılmışdır.

İnkişaf, milli birlik və həmrəylik, güclü dövlət və müstəqillik ümummilli liderimizin siyasi fəaliyyətinin əsas qayəsini təşkil edirdi. Zaman keçdikcə, illər ötdükcə, Heydər Əliyev şəxsiyyətinin böyüklüyünü daha dərindən dərk edirik. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Azərbaycanda Heydər Əliyev siyasətinin alternativi yoxdur. Bu siyasət yaşayacaq, özü ilə birlikdə Azərbaycan xalqını da yaşadacaqdır. Bu gün heç kimin şübhə etmədiyi reallıq bundan ibarətdir ki, dahi Heydər Əliyev faktoru təkcə iyirminci əsr Azərbaycanının deyil, iyirmi birinci əsr Azərbaycanının da gerçək simasını və inkişaf perspektivlərini müəyyənləşdirir"***.

Müdriklər deyir ki, Vətənə və xalqa həsr olunmuş ömür bitmir. Ümummilli liderimiz də deyirdi ki: ***"Nə qədər ki Azərbaycan var, mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam!"***

Həmin gün muxtar respublikanın bütün rayon mərkəzlərində də ümummilli liderimizin əziz xatirəsi dərin ehtiramla yad edilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Vətən uğrunda canlarından keçən övladlarını ehtiramla qarşıladı





44 gün davam edən Vətən müharibəsində Azərbaycan Ordusu tarixi ədaləti bərpa etdi, işğal altındakı torpaqlarımız azad olundu. Naxçıvan Muxtar Respublikasından olan igid oğullarımız da döyüşlərdə qəhrəmancasına mübarizə apardılar. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də dediyi kimi: ***"Naxçıvanlılar da ikinci Qarabağ müharibəsində digər bütün bölgələrdən olan vətəndaşlar kimi fəal iştirak ediblər... Bütün bölgələrdən olan hərbçilərlə bərabər naxçıvanlılar da böyük qəhrəmanlıq göstəriblər və torpaqlarımızın azad edilməsi işində fədakarlıq göstəriblər, şəhidlər veriblər".***

Dekabrın 14-də Naxçıvan Beynəlxalq Hava Limanında şəhidlərimizin qarşılanma mərasimi olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə iştirak etmişdir.

Dövlət və hökumət nümayəndələri, Türkiyə Silahlı Qüvvələrinin Azərbaycan Respublikasındakı hərbi attaşe aparatının Naxçıvan Muxtar Respublikasındakı nümayəndəliyinin zabitləri və şəhidlərin ailə üzvləri tədbirdə iştirak etmişlər.

Şəhid olan hərbi qulluqçularımız Qədimov Güloğlan Nürəddin oğlunun və Vəliyev Vüsal İslam oğlunun üçrəngli bayrağımıza bükülmüş cənazələri hərbçilərin müşayiəti ilə mərasim yerinə gətirildi.

Şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Ali Məclisin Sədri şəhidlərin xatirəsinə ehtiramını bildirdi.

Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun əsgərləri tərəfindən yaylım atəşi açıldı.

Sonra "Qurani-Kərim"dən ayələr oxundu, şəhid cənazələrinin önündən keçildi.

Şəhidlərin cənazələri doğulduqları qəsəbə və kəndə yola salındı.

Ali Məclisin Sədri şəhidlərin ailə üzvləri ilə görüşərək onlara başsağlığı verdi.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 14 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun vəsaitinin formalaşdırılması, idarə olunması və ondan istifadə QAYDASI

### 1. Ümumi müddəalar

1.1. Bu Qayda Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun (bundan sonra – Fond) vəsaitinin formalaşdırılması, idarə olunması və həmin vəsaitdən istifadə ilə bağlı münasibətləri tənzimləyir.

1.2. Fondun məqsədi "Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun yaradılması haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 14 dekabr tarixli Fərmanının 3.1-ci bəndində qeyd olunan şəxslərin (bundan sonra – şəxs) sosial müdafiəsi sahəsində dövlətin həyata keçirdiyi tədbirlərə əlavə dəstək verməkdir.

1.3. Fondun vəsaitinin sərəncamçısı Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyidir (bundan sonra – Nazirlik).

### 2. Fondun vəsaitinin formalaşdırılması və ondan istifadə

2.1. Fondun vəsaiti aşağıdakı mənbələr hesabına formalaşdırılır:

2.1.1. fiziki və hüquqi şəxslərin könüllü olaraq maliyyə vəsaiti şəklində verdiyi yardımlar (ianələr);

2.1.2. qanunla qadağan olunmayan digər mənbələr.

2.2. Fondun vəsaitinin toplanması və ondan təyinatı üzrə istifadə edilməsi məqsədilə bank hesabı açılır.

2.3. Fondun vəsaiti Azərbaycan manatı ilə və xarici valyutalarla formalaşdırılır.

2.4. Maliyyə vəsaiti şəklində verilən yardımların (ianələrin) Fond tərəfindən toplanılması aşağıdakı üsullarla həyata keçirilir:

2.4.1. onlayn qaydada – fiziki və hüquqi şəxslərin Fondun rəsmi internet səhifəsi və elektron ödəniş sistemləri üzərindən etdikləri ödənişlər;

2.4.2. SMS vasitəsilə – fiziki və hüquqi şəxslərin Fondun qısa nömrəsinə SMS göndərməklə etdikləri ödənişlər;

2.4.3. bank köçürməsi vasitəsilə – Fondun bank hesabına fiziki və hüquqi şəxslərin banklar və pulköçürmə sistemləri vasitəsilə etdikləri ödənişlər;

2.4.4. terminal vasitəsilə – fiziki və hüquqi şəxslərin xüsusi ödəmə terminalları vasitəsilə etdikləri ödənişlər;

2.4.5. qanunla qadağan olunmayan digər ödəniş vasitələrindən istifadə etməklə edilən ödənişlər.

2.5. Fondun vəsaitindən aşağıdakı istiqamətlərdə istifadə olunur:

2.5.1. şəhid ailəsi statusu alana və ya əlilliyi müəyyən edilənədək götürülən istehlak kreditlərinin və digər borc öhdəliklərinin qarşılanması;

2.5.2. müalicə və psixoloji dəstək xərclərinin ödənilməsi;

2.5.3. təhsil almasına, habelə əlavə təhsilinə, peşə hazırlığının artırılmasına, eləcə də yaradıcı potensialının inkişafına kömək edilməsi ilə bağlı xərclərin ödənilməsi;

2.5.4. məişət şəraitinin yaxşılaşdırılması.

2.6. Fondun vəsaiti bu Qaydanın 2.5-ci bəndində nəzərdə tutulmayan istiqamətlərdə istifadə edilə bilməz.

### 3. Müraciətlərin qəbulu və ehtiyacların müəyyənləşdirilməsi

3.1. Fond tərəfindən şəxsə əlavə dəstək onun müraciəti əsasında göstərilir.

3.2. Şəxsin müraciəti elektron qaydada Fondun rəsmi internet səhifəsi üzərindən qəbul edilir. Müraciətlərin elektron qaydada formalaşdırılması ilə bağlı könüllülər müraciət edən şəxsə yardım göstərirlər.

3.3. Fonda edilən müraciətlər, ehtiyacların prioritetliyi nəzərə alınmaqla, Nazirliyin bu məqsədlə yaratdığı informasiya sistemində növbəlilik prinsipi ilə sıralanır. Ehtiyacların prioritetliyi müvafiq dövlət orqanlarından (qurumlarından) və müraciət edən şəxsdən əldə edilmiş məlumatlar nəzərə alınmaqla, aşağıdakı meyarlar əsasında Nazirliyin müəyyən etdiyi əmsallara uyğun olaraq qiymətləndirilir:

3.3.1. bu Qaydanın 2.5-ci bəndinə müvafiq ehtiyac istiqaməti;

3.3.2. müraciətin ilkin və ya təkrar olması;

*Ardı 3-cü səhifədə*

3.3.3. müraciət edən şəxsin maddi vəziyyəti, orta aylıq gəliri;

3.3.4. himayəsində azyaşlı uşağın olması;

3.3.5. ailədə əmək qabiliyyətli şəxslərin sayı;

3.3.6. Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar dövlət təltiflərinin olması;

3.3.7. dövlət tərəfindən digər dəstək tədbirlərinin göstərilməsi.

**4. Müraciətlərə baxılma qaydası və dəstək göstərilməsi müddəti**

4.1. Nazirlik daxil olan müraciətlərə qanunvericiliyə uyğun olaraq baxır və nəticəsi barədə müraciət edən şəxsə bildiriş göndərir.

4.2. Şəxsə dəstək göstərilməsi barədə qərar qəbul edildikdən sonra 10 iş günü müddətində maliyyə yardımı müraciət edən şəxsə müvəkkil bank vasitəsilə təqdim olunur.

4.3. Eyni müraciətlə bağlı Fondun vəsaiti hesabına və ya müvafiq dövlət orqanının (qurumunun) əvvəllər yardım etdiyi, habelə müraciətdə göstərilən dəstəyin verilməsi üçün Fondun balansında kifayət qədər vəsait olmadığı hallarda, müraciət edən şəxsin razılığı ilə alternativ maliyyələşdirmə üsulu tətbiq olunur. Alternativ maliyyələşdirmə üçün şəxsin müraciəti Fondun rəsmi internet səhifəsində yerləşdirilir və onun fiziki və ya hüquqi şəxslər tərəfindən maliyyələşdirilməsinə imkan yaradılır.

**5. Fondun vəsaitinin formalaşdırılmasına və ondan istifadəyə nəzarət**

5.1. Fondun vəsaitinin formalaşdırılmasına və idarə olunmasına nəzarəti Nazirlik həyata keçirir.

5.2. Nazirlik:

5.2.1. Fonda daxil olan vəsaitin xərclənməsi istiqamətlərinə dair təklifləri aidiyyəti üzrə təqdim edir;

5.2.2. Fondun vəsaitinin idarə edilməsinə dair yarımillik və illik hesabatları, eləcə də digər zəruri məlumatları aidiyyəti üzrə təqdim edir.

## Şəhidlər ölmür, dastana dönür

44 günlük şanlı Vətən müharibəsində qəhrəmanlıq, şücaət göstərib, torpaqlarımızın azadlığı uğrunda şərəflə vuruşub öz adlarını Azərbaycan tarixinə əbədi yazdıran 2783 nəfər hərbi qulluqçumuz müqəddəs zirvənin fatehləri kimi tarixə düşdü. Onlar Vətən yolunda, torpaq yolunda, xalq yolunda şəhid oldular, insan mənəviyyatının ən yüksək zirvəsinə çatdılar. Şəhidlərimiz Vətənə sevginin, məhəbbətin, vətənpərvərliyin, yüksək mənəviyyatın ən gözəl nümunələridir. Onlar ölümün gözünə dik baxaraq qorxmadan, cəsarətlə Vətənimizi, torpaqlarımızı qorudular, amansız, vəhşi düşmənlə mübarizədə əsl qəhrəmanlıq, rəşadət göstərdilər. Dövlətimizə, xalqımıza, torpaqlarımıza qarşı həmişə müxtəlif iddialarla çıxış edən, illərlə Azərbaycan xalqının səbrini, iradəsini, dözümünü sınayan düşmən belə igid oğulların qarşısında aciz qaldı. Cəsur oğullarımız düşmənə layiqli cavab verdilər, bir daha göstərdilər ki, Vətəni qorumaq, Vətən üçün yaşamaq, Vətən üçün ölmək şərəflidir. Hamımız üçün müqəddəs, əvəzsiz nemət sayılan Ana Vətənin yolunda canını qurban edən hər bir şəhid tariximizə qızıl hərflərlə yazılan şanlı Qələbəmizin baş qəhrəmanıdır. Əgər bu gün bütün xalqımız şanlı Qələbəni, əzəli, tarixi torpaqlarımızın işğaldan azad edilməsini və Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsini bayram edirsə, bu müzəffər Ordumuzun şücaəti, qəhrəmanlığı, qorxmazlığı, cəsur əsgərlərimizin canı, müqəddəs, ölməz şəhidlərimizin qanı, xalqımızın birliyi hesabınadır. Bu gün üçrəngli, aylı-ulduzlu bayrağımız əzəli və qədim torpağımız Qarabağda əbədi dalğalanırsa, bunu Vətənimizin müdafiəsi, ərazi bütövlüyümüz uğrunda canlarından keçmiş qəhrəman oğullarımıza borcluyuq. Vətənimizin bütövlüyü uğrunda şəhid olmuş bütün əsgərlərimizlə, zabitlərimizlə fəxr edirik.

Ana Vətənimizin müdafiəsi uğrunda, xüsusilə seçilən, ölümün gözünə dik baxaraq yağı düşmənlə cəsarətlə mübarizə aparıb şəhid olanlar sırasında qədim diyarımız Naxçıvanın igid oğulları da vardır. Şəhid olan hərbi qulluqçulardan Qədimov Güloğlan Nürəddin oğlu Kəngərli rayonunun Qıvraq qəsəbəsində, Vəliyev Vüsal İslam oğlu isə Şərur şəhər Şəhidlər xiyabanında son mənzilə yola salındı. Dəfn mərasimlərində dövlət və ictimaiyyət nümayəndələri, Ali Məclisin deputatları, Əlahiddə Ümumqoşun Ordunun, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəsmiləri, minlərlə sakin iştirak edib. Dəfn mərasimində hər kəs onların igidliklərindən danışdı. Bildirdilər ki, tarixi Qələbənin qazanılmasında qəhrəmanlıq göstərərək şəhidliyə yüksələnlər bütün azərbaycanlıların ürəyində daim yaşayacaq, heç vaxt unudulmayacaqlar.

Mərasimlərdə iştirak edənlər şəhidlərin ailələrinə dərin hüznlə başsağlığı verdilər.

Düşmənə rəzalət damğası vuran, bizə qürur yaşadan belə mərd Vətən oğullarının ömür və fəaliyyət yolu hamımız üçün örnəkdir. Onların qəhrəmanlığı, şərəfli mücadilələri yüzilliklərboyu da xalqımızın tarixində yaşayacaq. Elə onların öz qanları ilə yazdığı yeni, həqiqətin parladığı səhifələrdə. Onların adları dualı dillərdə, şirin nəğmələrdə səslənəcək, onların igidliyi, şücaəti əfsanəyə, dastana, şeirə çevriləcək, nəsildən-nəslə ötürüləcək. Qədirbilən xalqımız daim bu igid övladlarının xatirəsini əziz tutacaq, onları həmişə ən ülvi hisslərlə yad edəcəkdir.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## Ürəklərdə yaşayan dahi

Hər bir insanı digərlərindən fərqləndirən, ucaldan xüsusiyyətləri vardır. Vətənpərvərlik, xeyirxahlıq, fədakarlıq kimi insanı ideallaşdıran xüsusiyyətlər. Lakin hər insan bunlara sahib olmaqla, bir dahiyə çevrilib insanların ürəklərində əbədi yer tuta bilməz. Biz Azərbaycan vətəndaşları olaraq qəlbimizdə həmişə bir dahini yaşadırıq. Elə bir dahi ki bu gün onun əsasını qoyduğu vahid və müstəqil dövlətdə yaşayırıq. Bu dahi, əlbəttə ki, Azərbaycan xalqının böyük oğlu Heydər Əlirza oğlu Əliyevdir. Böyükdən-kiçiyə hər kəsin dilinin əzbəri olan bu böyük şəxsiyyət dünya azərbaycanlılarını vahid ad altında birləşdirdi, xalqımıza müstəqillik qazandırdı, dövlətimizi dünyaya tanıtdı. Bir dövlət kimi formalaşmağımız üçün elm, təhsil, mədəniyyət, iqtisadiyyat, bir sözlə, bütün sahələrdə əvəzolunmaz addımlar atdı.

Ümummilli liderimizin hər zaman diqqət mərkəzində saxladığı əsas məsələlərdən biri də təhsil idi. Elmin, öyrənməyin, yeni biliklərə yiyələnməyin həddi-hüdudu yoxdur və bunu ulu öndər yaxşı bilirdi. Gənclər onun sayəsində xaricdə təhsil ala bilir, dövlət vəsaiti hesabına dünya miqyasında tanınmış nüfuzlu ali təhsil müəssisələrində ən gözəl ixtisaslara yiyələnirdilər. Ümummilli liderin təhsilə, elmə, öyrənməyə olan diqqətinin nəticəsidir ki, bu gün inkişaf etmiş dünya xalqları sırasında öz yerimizi almışıq.

Ulu öndər Heydər Əliyevin bir dahi kimi bütün azərbaycanlıların ürəyində yaşamasına saysız-hesabsız səbəb göstərmək olar. O, xalqımızın xilaskarıdır. Ulu öndər zəngin təbiəti, tarixi ilə məşhur olan torpaqlarımıza göz dikən düşmənə də öz yerini sərt şəkildə bildirdi. Əzəli Azərbaycan torpağı olan Qarabağı qorumaq üçün əlindən gələni etdi. Çünki o, xalqına bağlı bir öndər idi. Onun azərbaycanlılara olan inamı, güvəni bizi bu günlərə gətirib çıxardı. Liderimiz mənalı bir ömür yaşadı və həmin ömrü, sadəcə, xalqına qurban verdi. O ömür ki onun sayəsində indi milyonlarla ömür yaşayır. Dinc, əmin-amanlıq şəraitində yaşayan on milyondan artıq insan Heydər Əliyevə minnətdardır...

Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu siyasətin nəticəsidir ki, artıq 30 illik əsarət bitdi. Onun uzaqgörən siyasəti özü həyatda olmasa belə, bu gün bizim köməyimizə çatdı. Möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə müzəffər Ordumuz işğal altında olan torpaqlarımızı düşmən əsarətindən azad etdi, Qarabağı öz sahiblərinə qovuşdurdu. “Qarabağ Azərbaycandır!” şüarı altında bütün xalqımız ayağa qalxdı. Həmin xalqın qəlbində əbədi yaşadacağı ümummilli liderimizə də, bizlərə miras qoyduğu Vətən torpağına da sevgisi, məhəbbəti sonsuzdur...

Ürəklərdə yaşayan dahi... Onun bir ömrə sığdırdıqlarını əsrlər sonra da xalqımız unutmaz, unuda bilməz. Çünki biz Azərbaycan vətəndaşıyıq. ***“Mən həmişə fəxr edirəm ki, azərbaycanlıyam”.*** Dilimizin əzbəri olmuş bu cümlə bizləri doğma Vətəni sevməyə, onu daim uca tutmağa səsləyir. Nəinki gənclər, böyükdən-kiçiyə hər birimiz Vətənin qulluğunda dayanmağa, onu öz gücümüzlə ucaltmağa hazırıq.

Bu gün Azərbaycan dövləti ulu öndərimiz sayəsində mövcuddur. O, bundan sonra da qəlbimizdə yaşayacaq, böyük sevgi və hörmət hissi ilə anılacaq. Hər bir azərbaycanlının borcudur ki, bu dahini ürəyində yaşatsın. Yaşatsın ki, Azərbaycan həmişə vahid və müstəqil ola bilsin.

**Aysun CƏFƏRLİ**
***Heydər Əliyev adına tam orta məktəbin XI sinif şagirdi, muxtar respublikanın ümumtəhsil məktəbləri arasında “Ürəklərdə yaşayan dahi” mövzusunda keçirilən inşa yazı müsabiqəsinin qalibi***

*AMEA Naxçıvan Bölməsində muxtar respublikanın fəal gənclərinin “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişafı” adlı monoqrafiyanın müəllifi, akademik İsmayıl Hacıyevlə görüşü keçirilib.*

## Fəal gənclərlə görüş keçirilib



Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev ölkəmizdə həyata keçirilən gənclər siyasəti və onun uğurlu nəticələrindən bəhs edib. Bildirib ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasəti ölkə başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir. Naxçıvan Muxtar Respublikasında da gənclərlə iş yüksək səviyyədə qurulmuş, onların asudə vaxtının səmərəli təşkili üçün hər cür şərait yaradılmışdır.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev əvvəlcə bölmə haqqında qısa məlumat verib, qazanılmış elmi nailiyyətləri muxtar respublika gənclərinin diqqətinə çatdırıb. Gənclərə elmin bütün sahələrində ehtiyac olduğunu vurğulayan akademik bildirib ki, AMEA Naxçıvan Bölməsinin fəaliyyətinin əsas qayəsi Naxçıvanşünaslıq elminə xidmət etməkdir.

Müəllif monoqrafiya haqqında gənclərə ətraflı məlumat verərək bildirib ki, sözügedən nəşr Naxçıvan Muxtar Respublikasının yaradılmasının 95 illiyinə həsr olunub. Nəşrdəki fəsillər və onların əhatə etdiyi mövzuları gənclərin diqqətinə çatdıran akademik qeyd edib ki, kitabı oxuyan hər bir oxucu 1995-2019-cu illərdə muxtar respublikada sosial-iqtisadi və mədəni sahədə baş verən dəyişiklikləri, dinamik və davamlı inkişafın, əldə edilmiş nailiyyətlərin şahidi olacaq. Monoqrafiyadan yararlanan hər bir fəal gənc öz gələcək fəaliyyətində məhz bu perspektivli inkişafı nümunə götürə bilər.

Muxtar respublikada ərazi, enerji və ərzaq təhlükəsizliyinin tam təmin olunduğunu, elm, təhsil, mədəniyyət, turizm və digər sahələrdəki irəliləyişləri diqqətə çatdıran akademik vurğulayıb ki, 25 il ərzində əldə edilmiş inkişaf məhz xalqın və dövlətin mənafeyinə yönəlmiş uğurlu siyasətin bəhrəsidir. Həmin uzaqgörənliyin nəticəsidir ki, Naxçıvan bu illər ərzində daim yüksələn inkişaf tempi ilə uğurla irəliləyir. Çıxışının sonunda akademik İsmayıl Hacıyev elmə, təhsilə, mədəniyyətə göstərdiyi diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə öz minnətdarlığını bildirib.

Sonra fəal gənc Şövkət Kərimlinin monoqrafiya haqqında çıxışı dinlənilib və gəncləri maraqlandıran suallar cavablandırılıb.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

## Gənclərin asudə vaxtı səmərəli təşkil olunur



Muxtar respublikamızda gənclərin asudə vaxtının səmərəli təşkili daim diqqətdə saxlanılır. Ötən ay da bu məqsədlə müxtəlif tədbirlər keçirilmişdir. Belə ki, Dövlət Bayrağı Günü ilə əlaqədar olaraq Naxçıvan şəhərindəki “Kitab evi”nin qarşısında könüllü gənclərin iştirakı ilə “Bayraq mənliyimdir” adlı tədbir keçirilmiş, tədbir çərçivəsində istedadlı gənclərin ifasında vətənpərvərlik mahnıları səsləndirilmiş, könüllülər tərəfindən əhaliyə bayraqlar paylanılmış, “Əsgərə məktub” aksiyası, həmçinin gənclərin Dövlət Bayrağı Muzeyinə ekskursiyası təşkil olunmuşdur.

Gənclərin intellektual səviyyəsinin yüksəldilməsi, dünyagörüşlərinin artırılması, vətənpərvərlik və vətəndaşlıq hisslərinin təbliği məqsədilə ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında “Kim? Nə? Hara?” intellektual oyununun Naxçıvan Dövlət və “Naxçıvan” universitetləri üzrə seçim mərhələlərinin televiziya çəkilişləri təşkil olunmuş, Azərbaycan tarixində müstəsna xidmətləri olmuş şəxslərin, Azərbaycanın ərazi bütövlüyü uğrunda şücaət göstərmiş döyüşçülərin, o cümlədən Milli Qəhrəmanların gənclər arasında tanıdılması məqsədilə könüllü gənclər tərəfindən “Qəhrəmanlar unudulmur” adlı videoçarxlar hazırlanmış və sosial şəbəkələrdə paylaşılmışdır.

“2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı”nın icrası ilə əlaqədar Uzunoba gölünün ətrafında salınan təlim-məşq kompleksinin tikintisi davam etdirilmiş, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirliklərinin birgə təşkilatçılığı ilə bütün təhsil müəssisələrində şagird və tələbələrin idmana cəlb edilməsi üçün idmanın müxtəlif növləri üzrə klublar yaradılmışdır.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Vətən müharibəsi qazilərinə xüsusi səhiyyə xidməti göstərilir



Naxçıvan Muxtar Respublika Xəstəxanasının kollektivi tərəfindən humanitar tibbi aksiyaların keçirilməsinə başlanılıb. Xəstəxananın kollektivi bu dəfə Naxçıvan şəhərində yaşayan Vətən müharibəsi qazilərimizin evlərində olublar. Aksiya çərçivəsində yaralı hərbi qulluqçularımıza müxtəlif həkimlərdən ibarət ixtisaslaşdırılmış briqada tibbi xidmət göstərib.

Füzuli istiqamətində gedən döyüşlərdə yaralanmış Əlqəm Gözəlov cərrahlar tərəfindən müayinə olunub, dizindən aldığı yaranın sapları sökülüb, sarğıları dəyişdirilib.

Vətən müharibəsi qazisi Xəyal Kərimovdan və ailə üzvlərindən qan nümunələri götürülüb, rentgenoloji müayinə üçün xəstəxanaya dəvət olunub. Digər qazilər də kompleks tibbi müayinələrdən keçirilib.

Vətən müharibəsi qaziləri onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Naxçıvan Muxtar Respublika Xəstəxanasının baş həkimi Zəbur Bağırov bildirib ki, Səhiyyə Nazirliyində şəhid ailələrinə, Vətən müharibəsi qazilərinə və onların ailə üzvlərinə göstəriləcək səhiyyə xidmətinin keyfiyyətinə nəzarətin təmin edilməsi üçün komissiya yaradılıb. Komissiya şəhid ailələrinə, Vətən müharibəsi qazilərinə və onların ailə üzvlərinə göstəriləcək səhiyyə xidmətinin, o cümlədən tibbi yardım, həmçinin ehtiyac olan dərman preparatları ilə ödənişsiz təminatını, sağlamlıq imkanları məhdudluğun təyin olunması üçün lazımi tibbi sənədlərin hazırlanması və digər xidmətlərin yüksək səviyyədə həyata keçirilməsini təmin edəcək və ortaya çıxan problemlərin həllini diqqət mərkəzində saxlayacaqdır.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*Əfsanəyə dönən ömürlər*

# 2020-ci il, 20-ci payız...

## Oçerk



***Payızın son günlərində tökülən son yarpaqların əhvalı necə olur? Dərdli, nisgilli, hüznlü, iztirablı. Bir də gedəcəyi günün ağrı-acısını yaşayan. Bəs gedəcəyi son ana qədərki mərhələ necə olur? Daha iztirablı. Hər gün daha çox saralan, saraldıqca ovulan xışıltının səsi qulaqlarda uzun müddət qalır, öz gedişini xatırladır. Sanki xışıltı səsinin bu payızda avazı da bir başqadır. Səsli-küylüdür. Gurultuludur. Nə qədər insan yeriyir? Güman ki, bu payızın qonaqları var? Yox, gözünü açıb-yumur ki, qonaq dediyi elə öz elinin, yurdunun doğma simalarıdır. Uzun illərin payızından gəliblər. Başa düşür ki, bu payızın uzun illərdir, Vətən torpağını yağır edən düşmənlərdən canı qurtarıb. İndi Vətən həsrətli övladlar qalib kimi dolaşır doğma torpaqlarda. Vətən torpağına mərdlər, ərənlər ayaq basır. Bu payızın üzərində xışıltı səsini salan Vətən həsrətli övladlarından Seymur İbrahimov da var. Bu 20 yaşlı naxçıvanlı gənc necə oldu ki, Qarabağ torpağının azad olunmasının iştirakçılarından biri oldu? Təfərrüfatları ilə yazıda...***

Oktyabrın 11-i Naxçıvandan Qarabağ bölgəsinə yola düşən vətənpərvərlər arasında 2000-ci il təvəllüdlü, Naxçıvan "N" hərbi hissənin xüsusi təyinatlısı Seymur İbrahimov da olur. Özü də bu günü səbirsizliklə gözləyənlərdən biri kimi... Xasiyyətcə qapalı, azdanışan, qaradinməz olsa da, Vətən nidasını eşitdisə səsi gur çıxar, Vətən üçün gözəl-gözəl, ürəkdən, məhəbbətlə gələn cümlələr qurardı, beləcə, vəsf edərdi Vətəni. Hətta evdə onun səsini eşitmək istəyəndə, ailə üzvləri Vətən mövzusunu gündəmə gətirərdilər ki, həsrətində olduqları Seymurdan bir kəlmə duysunlar. Elə bu, əsl sevginin gücü idi ki, onu döyüş bölgəsinə sevinə-sevinə gedənlərdən etmişdi. Hələ iki il əvvəl hərbi xidmətə çağırılan zaman "Facebook" səhifəsində yazırdı: "Gün gəldi çatdı. Artıq mən də xidmətə getməliyəm! Azərbaycanın keşiyində durmalıyam! Azərbaycanı qorumaq hər bir oğul övladın borcudur... Sizə canım qurbandır, analar, bacılar. Canımı da verməyə gedirəm. Sağ-salamat gəlmək də var, şəhid olmaq da. Allah nə yazıb, o da olacaq. İnşallah, gün gələr, Mübariz İbrahimova salam verərəm..." Hələ qürurla, iftixarla Mübariz İbrahimovun şəklinə baxıb deyərdi, ikimizin də soyadı İbrahimovdur. Niyə də Seymur İbrahimov şəhid olmasın?! Hə, beləcə, öyrətmişdi şəhidlik arzusunu ailəsinə, sevdiklərinə. Psixoloji cəhətdən də hazırlamışdı hər birini. Döyüşə də gedəndən bir amalı vardı, elə İbrahimov soyadının şəhidlik zirvəsini fəth etmək, özünün də dediyi kimi, Mübariz İbrahimova salam vermək...

Döyüş başlayır, Füzuli, Hadrut istiqamətindən. Ardınca Cəbrayıl, Xocavəndin kəndləri işğaldan azad olur. Seymur hər bir vətənpərvər kimi, üzərlərinə yağan mərmilərdən məharətlə canını qurtarır. Müharibə zamanı onunla bir bölükdə, bir taborda, hətta bir qrupda sanitar işləyən Məcid Ələsgərov olur. Üç gün idi ki, təqribən, 17, 18, 19 oktyabr tarixlərində döyüş müddətində igidlərin dillərinə su belə, dəymirdi. Oktyabrın 20-si Azıx kəndini işğaldan azad etdikdən sonra Məcid, iki gizir, iki müddətdən artıq hərbi qulluqçu düşürlər yüksəklikdən aşağı. Ən azından su əldə etmək üçün. "Fiat" markalı yükpaylayan maşın əldə edib kəndə daxil olurlar. Xeyli çörək, banka, meyvə şirəsi götürüb geri qayıdırlar. Məcid müdafiəsində olduğu yüksəkliyin aşağısından Seymura kömək üçün xəbər göndərir. Seymur və yoldaşları ərzaqların daşınmasına kömək edir, otururlar üz-üzə, 120-yə yaxın heyətə ata payı kimi yemək bölünür. Amma hər kəsin üzündə gizlənən bir həyəcan vardı. Bu həyəcanın mənası "İrəli gedək, durmayaq, yemək vaxtıdır?" idi. Dərhal döyüşə girmək arzusu ilə araya çökən sükutu əsgərlik yoldaşı, kursdan bir yerdə olduqları (şəhid) Yalçın Rəhimov pozur: "Qardaşlar, tələsməyin, bizə istirahət verilib. Üç gündə qaldığımız yorğun, yuxusuz saatların xətrinə. Bir tikə çörəyi yeyək ki, dizimizdə qüvvət olsun. Sizə bir xəbərim var. Qənimətimiz çoxdur. Bu da səbəbsiz deyil. Seymurun ruzisidir, Allah tərəfindən verilən hədiyyəsidir. Allahın işinə bax, bu gün onun ad günüdür. Özü də yubileyidir. Tarixə baxın, oktyabrın 20-si Seymurun işğaldan azad etdiyimiz Azıx kəndində 20 illik yaş yubileyini qeyd edirik. Həm də tarixyazan vətənpərvər igid oğullarımızla". Seymur adəti üzrə qızarır. Bir az da qürur duyur, sevinc gülüşü üzünə xoş əhval-ruhiyyə bəxş edir. Xoşbəxt olur. Heç belə təsəvvür etməmişdi. İgid oğullarla işğaldan azad olan torpağın qayıtması onun ömrünün 20-ci ilinə təsadüf edəcək. Öz-özünə düşünür ki, bundan böyük hədiyyəm olmazdı.

Seymurun 20 yaşı olurdu. Ömrünün 20-ci payızı ilə elə Füzulinin Azıx kəndində də vidalaşır. Hər kəs onu təbrik edib, yeni uğurlu əməliyyatlar arzulayır. Ad günü əhval-ruhiyyəsi ilə son kəndləri işğaldan təmizlədikdən sonra oktyabrın 27, 28, 29-u Şuşa şəhərinin girişi üçün əhəmiyyətli hesab edilən 1553 metrlik yüksəkliyi (Daşaltı əməliyyatı) mühasirəyə alırlar. Həmin əməliyyat nəticəsində ermənilər ağır itkilər verir. Bizim bölüyün də itkiləri olur. Yüksəklikdən üç gün davamlı yaralılar daşınır. Seymur da al qan içində yaralananları aşağı endirir. Dostu Məcid də yaralanır. Seymur nəfəsini də dərmədən əlindən gələni edir ki, hər birini tibbi yardıma yetişdirsin. Bir tərəfdən də atışmalar yenidən başlayır. Seymur yenidən mövqeyinə qayıdır. Düşmən hər tərəfdən minatanlar vasitəsilə yüksəkliyi mərmi yağışına tutur. Səs-küydən qulaqlar tutulur, dumandan göz-gözü görmür. Yerdə uzanan Seymurun gözləri səmaya zillənir. Ömrünün 20-ci payızının son saniyələri Daşaltı əməliyyatı nəticəsində onunla sağollaşır. Bu payızın vidası da başqa olur. Ona tərəf atılan snayperlə ömrünün sonuncu, 20-ci payızında arzuladığı şəhidlik məqamına yüksəlir. Ruhu isə Mübariz İbrahimova salam vermək üçün səmalara ucalan əbədiyyət zirvəsinə yüksələrək cismini tərk edir.

**Türkan HÜSEYNLİ**

# Ətraf mühitin mühafizəsi tədbirləri davam etdirilir

***Muxtar respublikada ekoloji tarazlığın qorunması, əlverişli ekoloji mühitin yaradılması, insanların sağlam ətraf mühitdə yaşamasının təmin edilməsi məqsədilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən uğurlu sosial-ekoloji siyasət həyata keçirilir.***

Noyabr ayında ətraf mühitin mühafizəsi, qanunsuz ov edilməsi, meşə fondu torpaqlarından qanunsuz istifadə, ətraf mühitə təsir hallarının qiymətləndirilməsi məqsədilə 10 yoxlama-reyd keçirilmiş, 2 inzibati xəta qeydə alınmış və qanunauyğun tədbir görülmüşdür.

Muxtar respublikamızın təbiətinin qorunması üçün inzibati tədbirlərlə yanaşı, ekoloji-hüquqi maarifləndirmə tədbirlərinə də üstünlük verilir. Bu məqsədlə Naxçıvan şəhərinin Qaraçuq, Şərur rayonunun Şahbulaq, Kəngərli rayonunun Xok, Ordubad rayonunun Parağa, Sədərək rayonunun Sədərək kəndlərində ekoloji-hüquqi maarifləndirici tədbirlər keçirilmişdir. Tədbirlərdə ətraf mühitin mühafizəsi, yaşıllıqların artırılması, çay vadilərinin, suların qorunması, ailə təsərrüfatlarının inkişaf etdirilməsində yabanı meyvə və dərman bitkilərindən səmərəli istifadə yolları haqqında müzakirələr aparılmışdır. Ay ərzində ekoloji monitorinqlər də davam etdirilmişdir. Bu məqsədlə Şərur, Sədərək, Ordubad, Babək, Şahbuz, Kəngərli və Culfa rayonlarının 28-dən çox yaşayış məntəqəsində monitorinqlər aparılmışdır.

Hesabat ayında Araz və Arpaçay çaylarının muxtar respublikaya daxil olan hissəsindən və Sədərək rayonu ərazisindən keçən "Şir arxı"ndan hər birindən 4 su nümunəsi olmaqla, ümumilikdə, 12 su nümunəsi götürülmüş və Sədərək Rayon Su Monitorinq Laboratoriyasında 108 analiz aparılmışdır. Analizlərin nəticəsində sularda çirklənmə hallarının yol verilə bilən qatılıq həddini keçməsi halı qeydə alınmamışdır.

Ötən ay payız yaşıllaşdırma tədbirləri çərçivəsində, ümumilikdə, 15,6 hektar sahədə yeni meyvə bağları salınmış, 25 hektara sahədə tinglə bərpa, 100,5 hektar sahədə toxumla əkin işləri həyata keçirilmiş, 24 min 170 ədəd müxtəlif meyvə, meşə tingləri, həmişəyaşıl və üzüm kolundan istifadə olunmuşdur. Toxum bölgüsünə uyğun olaraq 383 kiloqram müxtəlif meyvə və meşə toxumları tədarük edilmişdir. Növbəti illərdə tingə olan tələbatın yerli istehsal hesabına ödənilməsi məqsədilə Qoşadizə və Xətai ərazilərindəki tinglik sahələrində 509 kiloqram toxumdan istifadə olunmaqla, badam, alma, gilənar, alça, almaxara toxmacarlıqları salınmışdır.

Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair sərəncamın icrası məqsədilə nazirliyin hamiliyinə verilmiş Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin Ekologiya mühəndisliyi ixtisasının IV kurs tələbələrinə 16 noyabrdan 30 dekabradək istehsalat təcrübəsinin keçirilməsinə başlanılmışdır. İstehsalat təcrübəsi dövründə tələbələrə ətraf mühitin mühafizəsi, təbii sərvətlərdən səmərəli istifadə, ekoloji qanunvericiliyin tələbləri və sair sahələr üzrə geniş məlumatların verilməsi ilə yanaşı, idarə və müəssisələrin fəaliyyəti, onların iş prinsipləri ilə tanışlıq sahəsində tədbirlər həyata keçirilir. Bu məqsədlə Ekologiya mühəndisliyi ixtisasının IV kurs tələbələri nazirliyin Meşə Tingliyi Müəssisəsində olmuşlar. Burada onlara toxmacarlıq sahələrinin salınması, ting yetişdirilməsi və aqrotexniki qulluq işlərinin aparılması ilə bağlı geniş məlumat verilmiş, sonra tələbələr toxmacarlıqların yaradılması işində iştirak etmişlər.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

# Şəhid məzunların xatirəsi ehtiramla anılıb



Naxçıvan Müəllimlər İnstitutunda Vətən müharibəsi şəhidlərinə həsr olunmuş tədbir keçirilib. Dövlət himninin oxunması ilə başlanan tədbirdə institutun rektoru Azad Novruzov çıxış edərək 44 günlük Vətən müharibəsində böyük hünər və şücaət göstərən Vətən oğullarının əziz xatirəsini yad edib. Bildirilib ki, bu müharibədə öz şəhadətinə çatan qəhrəman oğullarımız sırasında Naxçıvan Müəllimlər İnstitutunun iki məzunu – Kamran Hüseynov və Ruhid İslamlı da olub.

İnstitutun prorektoru Çapay Quliyev öz çıxışında məzun tələbə şəhidlər haqqında geniş məlumat verib, hələ tələbə ikən onların cəsurluğu və çalışqanlıqlarını vurğulayıb.

Pedaqoji fakültənin III kurs tələbəsi Gülcan Əlizadə çıxış edərək bugünkü gəncliyin şəhidlərimizə olan münasibətini qeyd etmiş, onlarla eyni dövrdə tələbə adını daşıyan, birlikdə institut tədbirlərində iştirak edən şəhid Ruhid İslamlı haqqında fikirlərini bildirib.

Tədbirdə tələbələr şəhidlərlə bağlı şeirlər qiraət ediblər. Şəhidlərə həsr olunmuş kompozisiya da maraqla qarşılanıb. Sonda İncəsənət kafedrası müəllimlərinin və Təsviri incəsənət ixtisası tələbələrinin təqdimatında şəhidlərin xatirəsinə həsr olunmuş sərgiyə baxış keçirilib.

**Xəbərlər şöbəsi**

# Tələbələr təcrübə keçirlər

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi və Naxçıvan Dövlət Universitetinin birgə təsdiq etdiyi 2020-2021-ci tədris ilinə dair tədbirlər planının icrası istiqamətində işlər davam etdirilir. Tədbirlər planına uyğun olaraq universitetin Beynəlxalq münasibətlər və hüquq fakültəsinin Hüquqşünaslıq ixtisasının IV kurs tələbələrinin cari ilin noyabr-dekabr ayları ərzində nazirlikdə və tabe qurumlarında təcrübə keçmələri nəzərdə tutulur. Tələbələrin nazirliyin Naxçıvan Şəhər Nikah Evində, Naxçıvan Şəhər Qeydiyyat Şöbəsində və Naxçıvan Şəhər 3 saylı Notariat Ofisində təcrübə kursu keçmələri təmin edilib.



Onlara nikah əməliyyatlarının aparılması zamanı tələb olunan sənədlər barədə məlumat verilib, bu sahədə kargüzarlığın aparılması qaydaları əyani şəkildə göstərilib.

Tələbələrə qeydiyyat sahəsində aparılan vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatına dair ərizə formaları, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı, notariat hərəkətləri, notariat hərəkətləri aparılmasının əsas qaydaları, notariat hərəkətləri aparılan zaman dövlət rüsumunun ödənilməsi qaydaları və notariat hərəkətlərinə dair qanunvericiliyin əsas müddəaları haqqında məlumat verilib.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

* * *

Naxçıvan Dövlət və "Naxçıvan" universitetlərinin IV kurs tələbələri "Badamlı" Mineral Sular Zavodundakı istehsal prosesi ilə yaxından tanış olublar.



İstehsalat təcrübəsində tələbələr müəssisənin fəaliyyəti, istehsal edilən məhsullar, onların çeşidi, tətbiq edilən müasir avadanlıqlar, məhsulların istehsal texnologiyasının keyfiyyətə təsiri barədə mütəxəssislər tərəfindən ətraflı məlumat alıblar.

Bildirilib ki, "Badamlı" mineral suyu 1947-ci ildən istehsal olunur. Zavodda 14 çeşiddə istehsal olunan qazlı və qazsız "Badamlı" suları təkcə Naxçıvanda deyil, ölkəmizin hər yerində, eləcə də Rusiya, Qazaxıstan, Birləşmiş Ərəb Əmirliyi, Çin və İraq kimi ölkələrdə də özünə alıcı kütləsi toplayıb.

Sonda tələbələrin sualları cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

### Naxçıvan Muxtar Respublikası üzrə 14 dekabr 2020-ci il tarixə taxıl səpininin gedişinə dair məlumat

hektarla

| S/№ | Şəhər və rayonlar | Səpilən sahə | o cümlədən | |
|---|---|---|---|---|
| | | | buğda | arpa |
| 1. | Şərur rayonu | 1994 | 1491 | 503 |
| 2. | Babək rayonu | 8566 | 5348 | 3218 |
| 3. | Ordubad rayonu | 932 | 167 | 765 |
| 4. | Culfa rayonu | 4408 | 3592 | 816 |
| 5. | Kəngərli rayonu | 5263 | 2647 | 2616 |
| 6. | Şahbuz rayonu | 1125 | 1042 | 83 |
| 7. | Sədərək rayonu | 1700 | 564 | 1136 |
| 8. | Naxçıvan şəhəri | 646 | 512 | 134 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **24634** | **15363** | **9271** |


**ŞƏRQ qapısı**

**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Ramiyyə Əkbərova

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1500. Sifariş № 938